**ƏLAVƏ 2**

Azərbaycan Respublikasının Gənclər Fondunun Müşahidə Şurasının 24 avqust 2018-ci il tarixli Q-02 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

## Azərbaycan Respublikasının Gənclər Fondu 11-ci qrant müsabiqəsinin mövzularının siyahısı

**“C” kateqoriyası üçün təklif olunan istiqamətlər:**

- Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş hərbçilərimizin cəmiyyətə tanıdılması istiqamətində təşəbbüslər;
- vətənpərvərlik tərbiyəsi və ictimai davranış qaydalarının təbliği mövzusunda sosial videoçarxların və animasiya filmlərinin hazırlanması;
- Azərbaycanın tarixi və mədəniyyətinin gənclər arasında təbliği;
- gənclərin iqtisadi biliklərinin artırılması, sahibkarlıq fəaliyyətinin təşviq edilməsi;
- gənclərin internet mediaya marağının artırılması və sosial şəbəkələrdən düzgün istifadənin təbliğ olunması;
- gənclərin gender mövzusunda maarifləndirilməsi gender stereotiplərin və qadınlara qarşı ayrıseçkiliyin aradan qaldırılması istiqamətində innovativ təşəbbüslər;
- gənclər arasında sağlam həyat tərzinin təbliğ edilməsi məqsədilə həvəskar idman yarışlarının (mini futbol, voleybol, basketbol, peyntbol və s.) təşkili;
- yaradıcı gənclərin cəmiyyətə tanıdılması məqsədilə onların sərgilərinin təşkili;
- istedadlı gənclərin ixtiralarının və innovativ ideyalarının dəstəklənməsi;
- gənclərin elmi fəaliyyətə təşviq edilməsi;
- yeniyetmə və gənclər arasında bədii və elmi ədəbiyyata marağın artırılması;
- gənclərin natiqlik bacarıqlarının inkişaf etdirilməsi;
- sosial xidmət sahələrində könüllü fəaliyyətin təşviqi;

- gənclər tərəfindən sosial kitab evlərinin yaradılması və digər gənclərin oraya cəlb edilməsi sahəsində təşəbbüslər;
- gənclərin ekoloji maarifləndirilməsi və ətraf mühitin qorunması istiqamətində təşəbbüslər;
- region gənclərinin ictimai fəallığının artırılması.